AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 8/4

Bakı şəhəri 25 may 2016-cı il

"Elm və İnnovasiya" elmi-populyar
proqramının təşkili haqqında

Son illər AMEA-da gedən islahatların tələblərinə uyğun olaraq, ictimaiyyətlə əlaqələr istiqamətində siyasət tamamilə yenidən qurulmuş, elmi nailiyyətlərin və biliklərin cəmiyyətdə populyarlaşdırılması sahəsində bir sıra konseptual addımlar atılmışdır. İctimaiyyətlə elmi mühit arasında əlaqənin daha sıx və dinamik şəkildə təşkili, görkəmli alimlərin kütləvi informasiya vasitələri ilə tanıdılması və əldə olunan elmi nailiyyətlərin populyar şəkildə çatdırılması məqsədi ilə Rəyasət Heyəti aparatında İctimaiyyətlə əlaqələr və elmin populyarlaşdırılması idarəsi yaradılmış, bütün elmi müəssisələrdə ictimaiyyətlə əlaqələr üzrə məsul şəxslər təyin olunmuşdur.

Biliklər iqtisadiyyatı şəraitində innovativ layihələrin müzakirəsi, tətbiqi perspektivləri, müxtəlif elm və texnologiya sahəsindəki yeniliklərin populyarlaşdırılması və cəmiyyətdə elmə olan marağı artırmaq məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Elmi biliklərin təbliği və AMEA-da əldə olunmuş nailiyyətlərin geniş ictimaiyyətə çatdırılması məqsədilə "Elm və İnnovasiya" elmi-populyar proqramının təşkil olunması ilə bağlı "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə müraciət olunsun.
2. AMEA-nın elmi bölmə və müəssisələrinə tapşırılsın ki, verlişdə müzakirə olunacaq mövzularla bağlı təkliflər hazırlayaraq AMEA Rəyasət Heyətinə təqdim etsinlər.

3. AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə tapşırılsın ki, "Elm və İnnovasiya" elmi-populyar proqramının təşkilati işlərinin həyata keçirilməsindən irəli gələn məsələləri həll etsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT